## قاتیل احمدی نژادین سارساخلامالاري وه غرب دۆنیاسي

## qatil ahmədi nəjadın sarsaxlamaları, və qərb dűnyası

اۆلمایان ایسراعیل دۆولتینه قارشي هیتلئر زۆنمالاری کیمی چیخیشلار ائتمه‌یه باشلامیشدیر. بۆ ساوادسیز جینایتکارین دئدیکلرینه گۆره ایکینجي دونیا ساواشیندا جوهۆدلر هیتلئرین اۆلوم کامپلاریندا یاندیریلیب، قازلا اۆلدوروِلمه‌میشلر.، بۆ غربین ایسراعیل دۆولتینی یاراتماسي اوچون بیر باهانا کیمی اۆرتایا آتیلمیشدیر. بۆ کۆل دیبیندن تاپیلان بوزوِر گوِوار سندلی ایکینجي دوِنیاساواشي فیلملرینه باخیب، بیر نئچه تاریخ کیتابی اۆخوِیا بیلسئدی، هر حالدا بئله جفن - گیياتي دیله گتیرمه‌زدی. هر حالدا ۲۷ ایل عمروِنوِ بۆ تئرۆوریست رئژیم خیدمتینده اینسانلاري شیکنجه ائتمکله - گوِلله‌لمکله کئچیردی‌بیندن اۆخوِماغا، بیلگی تۆپلاماغا واختي اۆلمامیشدیر...!!! هر شئیی آغ، یادا قارا گۆرمکده‌دیر.

هرکسین نیفرتینی قازانمیش بۆ جناب، دۆست قازانماق یئرینه اۆلکه خاریجینده دوِشمن آختاریر. اۆنوِن اۆزگه بیر اۆلکه‌نین وارلیغیني دانماسي وه اۆنوِ تهدید ائتمه‌سی جهالتین وه نادانلیغین آچیق نموِنه سیدیر. ایسراعیلین فلسطین وه باشقا عرب دۆولتلری ایله اۆلان آنلاشمامازلیقلاري - ایختیلافلاري اۆنلارین خصوِصی مسئله سیدیر. باشقا اۆلکه لره مربوِط اۆلان بیر شئي دئییلدیر. هر حالدا کۆمپلئکس وه عقده‌لرله دۆلوِ اۆلان بۆ شخص بئله سارساخلاماقلارلا اۆزونوِ مطرح ائتمه‌یه چالیشیر. اۆلکه‌نی آغیلا گلمه‌ین فلاکته گۆتوِرور.

اۆز هم قاتاري اۆلان پوِتین‌نین - روِسلارین اۆنا وئردیکلری مقصده اۆلاشمایان راکئتلره گۆوه‌نیر. ائله صدامیندا هامان راکئتلردن واریدي، ائله اۆنادا اۆ راکئتلری روِسلار وئرمیشدیلر. بۆ راکئتلر چۆخ کهنه‌لمیش - رده‌دن چیخمیش راکئتلر اۆلدوِغوِ اوچون، اۆنلاري یوِخ ائتمک اوچون بۆ یوک پارا وه تئکنیک لازیمدیر. بوِنا گۆره‌ده اوِروِسلار تئهران رئژیمی کیمی صوِفحاني تاپیب، اۆز زیبیللرینی میلیوِنلارجا دۆلارا ساتیرلار. وبۆ قاتیل بئیین‌سیز جناب اۆنوِدوِرکی، دونیا اۆنوِن دوشوِندوِیوِ دونیا دئییلدیر. روِس ایمپئرییاسي داغیلاندا دونیانین ان چۆخ راکئتی وه آتۆم سیلاحی واریدی. ایللر - ایلی بۆ سیلاحلارلا دونیاني تهدید ائدیردیلر. آمما اۆ سیلاحلارین هئچ بیری بۆ اۆلکه‌نین داغیلماسیندا اۆنا یاردیم ائده بیلمه‌دی. ایران دئییله‌ن یئر اورسییتده اۆلا بیلمه ز، سۆنوِندا افغانیستاندا داها پیس دوِرما دوِشه‌ر. دده بابالاریمیزین بیر مثلی وار. دهلی قوِیوِیا بیر داش سالار، مین آغیلي ییغیشیچب اۆنوِ چیخاردا بیلمه‌ز. بلی بۆ قاتیل احمقی نژاد اوچوِنده کئچرلیدیر.

بوِرادا بوِنوِدا خاطیرلاتماق یئرینده اۆلارکی، آذربایجانلیلار، آذربایجانلیلارین آیدین وه ضییالیلاري، میللي تشکیلاتلاري آپ - آچیق اۆز یۆللارینی تئهراندان آییرمالي، یاخیندا اۆوِلاناجاق یانقین دان آذربایجانیمیزي - میللتیمیزی اوِزاق توِتماغا، قوِروِماغا چالیشمالیدیرلار. هر زامان اۆلدوِغوِ کیمی بۆ دفعه فارسین - ایرانین اۆدوِنا یانمامالي، اۆد سۆندوِرمه‌یه قالخمامالیدیر. بۆ دفعه یالنیز وه یالنیز اۆزوِنه دوِشوِنمه لیدیر. چوِنکی بۆ اۆددا قاباقکي اۆدلاردان چۆخ فارقلي بیر اۆد اۆلاجاقدیر.

غرب اۆلکه‌لرینه گلدیکده اۆنلار هم آللاهي ایسته‌ییرلر، همده خوِرماني. بوِدا اۆلان شئي دئییلدیر. اۆنلار بیر طرفدن اۆز ایقتیصادلارینی دنگه‌ده ساخلاماق اوچوِن نفتین آراسي کسیلمه‌دن آخماسینی ضروِری گۆروِرلر. اۆ بیری طرفده‌نده اسکی نوِکرلری اۆلان شاهین یئرینه گتیردیکلری خمئینی‌نین فوِندامنتالیست، تئرۆریست رئژیمینده‌نده اۆنلارین سازیلا اوِیناماسینی ایسته ییرلر. بۆ رئژیم اۆنلارین حمایه‌سی ایله بۆ گوِنه قدر یاشاسادا، عملده ایلک گوِنده‌ن شیلتاقلیق ائدیر.

بوِگوِن بوِتوِن ایسلام دوِنیاسیني ایچینه آلان فوِندامنتالیست دوِشوِنجه‌یه دایانان ایسلام تئرۆریزمی محض تئهران رئژیمی نین محصوِلوِدوِر. غربلیلر آزارلیغي یارادان عامیلی آرادان گۆتوِرمک یئرینه اۆنوِن دوِنیایا یاییمیش اۆلدوِغوِ عواریضی ایله موِجادیله آپاریرلار. بئله بیر رئژیمده‌ن هئچ بیر منطقی یۆل گۆزله‌نه بیلمه ز. دیکتاتۆر رئژیملرده‌ده رئفۆرم موِمکوِن دئییلدیر. چوِنکی یۆخ اۆلماسینا سبب اۆلار. اگر غرب اۆلکه‌لری اۆزلری‌نین یاراتدیقلاري بۆ بلانین عهده‌سینده‌ن گلیب، بۆ بلاني کۆکوِنده‌ن سیلمه‌زلرسه، بۆ بلا دوِنیا ایجتماعیيتي اوچوِن بیر خرچنگ آزارلیغینا چئوریله‌جکدیر.

غرب اۆلکه‌لری‌نین دیزه کۆچموِش اوِرسییتین قوِلوِنا گیریب، قالخیزمالاري، وه پوِتین کیمی چه‌چه‌ن سوِي قیریمینی آپاران بیریسینی تاباغا قوِیمالاري، اۆزلرینی دئموِکرات سایان غربلیلرین گۆزلری قاباغیندا یالنیز بۆ غئیرتلي میلتین فاجیعه‌سینه سبب اۆلماقلا قالمادي، تئهراندادا اۆز رئژیمینه به‌نزه‌ر بیر همقطار تاپماسینا سبب اۆلدی. بۆ گوِن ایرانداکی آتۆم سیلاحی مسئله‌سی، روِسلار طرفیندن ایرانا وئریله‌ن، ایراندا قوِراشدیریلان راکئتلرین وارلیغي غربین قیسا وعده‌لی سیاستی‌نین نتیجه‌سیدیر. بوِناگۆره‌ده آمئریکالیلار باشدا اۆلماقلا غربیلي‌لر اوچوِنجوِ دونیا اۆلکه‌لری اۆنلارین ایدعا ائتدیکلری دئموِکراسییا وه غربیلره اینانمالارینی ایسته‌ییرلرسه .اۆز سیاستلرینی یالنیز اۆز چیخارلاري آچیسیندان یۆخ، اوِزوِن وعدلی هر ایکی طرفه خئییرلی اۆلان سیاستی سئچمه‌لیدیرلر. اۆنلار بوِگوِن ایران مسئله‌سینده ایکی یۆلوِن آیریجیندا قرار تاپمیشلار. یا بۆ دوِسداقدا باشایان میللتلرین ایستکلرینی اۆز سیاستلرینی بیرلشدیریب، اوِزوِن وعده‌لی اۆلاراق منطقه‌ده باریش وه امنیتین ساغلانماسینا، بۆ میللتلرله غرب اۆلکه‌لری آراسیندا دۆستلوِق وه امکداشلیغین یۆلوِنوِ سئچیرلر، یاخوِد مرکزده بیر قوِلوِقچوِ رئژیم حاکمیته گتیرمکله ایکینجي بیر افغانیستان وه عراق باراتمیش اۆلوِرلار. اۆنوِن اۆدوِ اۆنلارین اۆزلرینده یاندیرمیش اۆلار.

## Qardaşlıq beləmi Olar?!!

## قارداشلیق بئله می اۆلار؟!

61 il qabaq gűney Aərbaycan milli hőkumeti tərəfindən űç nəfərlik bir numayəndə heyət Ankaraya gőndərilimişidi ki, Tűrkiyə hőkuməti ilə munasibətlər qurub, Gűney Azərbaycan istiqlaliyyətini elan edecəyi haqda məlumat verib, dəstəklənməsini istəməsini istəmişdir. və ticari munasibətlər qurulmasına çalışılmışdılar. çűnki o zamanda Azerbaycan milləti yaxin qonşusu olan tűrk hőkumətini őzűnə en yaxın millət hesab etdiyindən belə bir numayəndə heyətini ora gőndərilmişdir. Ora gedənlərdə , onları gőndərən Azərbaycan milli hőkumətidə yeni bir tűrk hőkuməti idi.. amma qardaş Tűrkiyə Hőkuməti bu Tűrk qardaşları təhvıl almadılar. millətimizin dűşməni olan farslari őzlərinə daha yaxın gőrűb, bu azərbaycan numayəndələrini Tehrana rejiminə təhvil verdilər. O tarixdən 61 il keçsədə hənuz Ankarada oturan Tűrk qardaşlarımız bu gűnahları űçűn Azərbaycan millətindən uzur isəməmişlər. burdanda bəlli olur ki, nece diyələr «tűrkűn tűrkden başqa dostu yoxdur.» deməyin mənası nədir. Xatırlatmaq yerində olarki, Tehrana təhvil verilən Azerbaycan numayəndə heyəti tehran rejimi tərəfindən qətlə yetirildilər.

Quzey Azərbaycan őz műstəqilliyini əldə edib, əbulfəz elçi bəy hakimiyytə gəldikdən sonra Tűrkiyə ilə Azərbaycan arasindan qıl keçmirdi. Amma işqalçi cinayətkar ermənilər

Azərbaycana saldıdıqda Tűrkiyenin Azərbaycana yardımı məsələsi ortaya atıldıqda Tűrkiyənin o zamanki baş naziri Turqut őzal bəy onlar şiədir biz sűniyik dedi.. iran onlara yadim etməlidir. Ebulfəzl qardaşimiz yenədə ayılmadı. xocalı qətliaminda Ermənilər tərəfindən őldűrűlən Azərbaycanlıları daşımaq űcűn yelpik qanad( Helikopter) istədi. Bu istekde Tűrk qardaşlarımız tərəfindən rəd edildi. hər halda orada őldűrűlənlər Tűrkiyənin dűşűndűyű tűrklərdən deyildilər.

Bir műdət sonra Azerbaycan nəftinin qərb şirkətlərinə satlmasi mesələsi ortaya atıldı Tűrk soyadaşlarimiz bu nəftidən imtiyaz almaq űçűn dəridən qabıqdan çıxmağa başladılar. bu durumu gőrən Anadili redaksiyası «Tűrkiyelilər Azerbaycanı nəfti űçűnmi seviler?» başlağı altında bugűnkű kimi bir yazı yazmağa məcbur oldu. Bu Tűrk qardaşlarımızın xoşuna gəlmədi , yazdılarki: Anadili Arı dili olmasın. Əlbətə bizi tərif edecəklərini gőzləmirdik. hər halda Əbulfəz bəy hakimiyyətdə olamasada Əliyef bəydən őz səhmilərini aldılar. Ceyhan nəft Borusunuda Gűney Azərbaycanın űstűndən yox, gűrcűstanın űstűndən çəkildi, və oradanda őz payalını almış alacaqlar. ne yaxşı ki tűrkiyenin űstűnden keçirildi. burdanda gőrűlűrki biz təkcə őz çıxarlarımızı dűşűnműrűk. hərnə olursa olsun qardaş őlkədir. Amma bu qardaş őlkədə hakimiyyetdə olanlar və iş adamları həqiqətən bizləri őzlərinə qardaş olaraq gőrűrlərmi?! yosa yalniz őz çıxarlarını dűşűnűrlər?!. belə deyildirsə nədən onlar ortaq dűşmənlərimiz olan

آردي ۴- نجو باپراقدا( صحیفه ده)